Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı
ISSN:2148-2292
Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 189-209
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp. 189-209
Araştırma Makalesi
Original Article

# XV əsrdə Şərqi Anadoluda Azərbaycan Türk amilinin güclənməsi (Şərəf xan Bidlisinin "Şərəfnamə" Əsəri Əsasında)

**Yeganə Çağlayan*** **ORCİD: 0000-0001-5462-2954**

**Erhan Çağlayan**** **ORCİD: 0000-0003-2510-8774**

**Xülasə**

XV əsr Şərqi Anadolunun və Azərbaycanın etnik-siyasi tarixində önəmli yer tutur. Bu dövr, bir tərəfdən, adı çəkilən bölgələrdə türk etnik amilinin güclənməsi, digər tərəfdən, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranıb yüksəlməsi ilə xarakterizə olunur. Bu dövlətlər Azərbaycanın, eləcə də Şərqi Anadolunun etnik tarixində aparıcı rol oynamış, Türk-İslam dünyasının siyasi və mədəni intibahını şərtləndirmişdir.Məqalədə XVI əsrin məşhur tarixçisi Şərəf xan Bidlisinin "Şərəfnamə" əsərindəki məlumatlar əsasında bəhs olunan dövrdə Şərqi Anadoluda Azərbaycan türk amilinin güclənməsini şərtləndirən amillər və başlıca hərbi-siyasi proseslər izlənilir. Belə bir nəticəyə gəlinir ki, Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri bölgənin digər siyasi gücləri ilə müqayisədə türk etnik amilinin güclənməsində daha intensiv rol oynamışlar. Digər tərəfdən, sonrakı mərhələdə Səfəvi dövlətinin ortaya çıxması ilə Azərbaycan türk etnik amili daha da güclənmiş, Azərbaycan bölgədə daha ehtişamlı siyasi güc qazanmışdır.

**Açar sözlər:** Türk amili, Şərqi Anadolu, Azərbaycan, Qaraqoyunlular, Ağqoyunlular

**Gönderme Tarihi: 30/09/2019** **Kabul Tarihi:26/12/2019**

*Dosent Doktor, Muş Alparslan Universiteti Tarix Bölümü, E-mail: y.caglayan@alparslan.edu.tr
**Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı,E-mail: caglayan49@hotmail.com

© ATDD Tüm Hakları Saklıdır

Cilt:6 / Sayı:5
Kış 2019

# Strengthening of the Azerbaijani Turkic factor in Eastern Anatolia in the 15th century (based on the "Sharafname" of Sharaf Khan Bidlisi)

**Yeganə Çağlayan** **Erhan Çağlayan**

**Abstarct**

The 15th century played an important role in the ethnic and political history of Eastern Anatolia and Azerbaijan. This period, on the one hand, characterized by an increase of the Turkic ethnic factor in the above-mentioned regions, and on the other, by the emergence and strengthening of the states of Karakoyunlu and Akkoyunlu. These states, having played a leading role in the ethnic history of Azerbaijan, as well as Eastern Anatolia, contributed to the political and cultural revival of the Turkic-Islamic world.The article, based on the dates of the author of "Sharafname" Sharaf Khan Bidlisi, examines the factors that led to the strengthening of the Turkic factor in Eastern Anatolia, and the main military and political processes of the 15th century. Azerbaijani states of Garagoyunlu and Agqoyunlu played a more active role in strengthening the Turkic ethnic factor, compared with other political forces in the region. On the other hand, with the emergence of the Safavid state at a later stage, the Turkic ethnic factor in Azerbaijan became even stronger, and Azerbaijan gained great political power in the region.

**Keywords:** Turkic factor, Eastern Anatolia, Azerbaijan, Karakoyunlu, Akkoyunlu

**Received Date: 30/09/2019** **Accepted Date: 26/12/2019**

# Усиление азербайджанского тюркского фактора в Восточной Анатолии в XV веке (на основе “Шарафнаме» Шараф хана Бидлиси)

**Егяна Чаглайан** **Ерхан Чаглайан**

**Резюме**

XV век сыграл важную роль в этнической и политической истории Восточной Анатолии и Азербайджана. Этот период, с одной стороны, характеризуется усилением тюркского этнического фактора в вышеупомянутых регионах, а с другой – возникновением и усилением государств Гарагоюнлу и Аггоюнлу. Эти государства, сыграв ведущую роль в этнической истории Азербайджана, а также Восточной Анатолии, способствовали политическому и культурному возрождению Тюрко-Исламского мира.В статье, на основе сообщений автора «Шарафнаме» Шараф хана Бидлиси, рассматриваются факторы, которые привели к усилению тюркского фактора в Восточной Анатолии, и основные военно-политические процессы XV века. Делается вывод, что азербайджанские государства Гарагоюнлу и Аггоюнлу сыграли более активную роль в усилении тюркского этнического фактора, по сравнению с другими политическими силами региона. С другой стороны, с появлением государства Сефевидов на более позднем этапе, тюркский этнический фактор в Азербайджане еще более укрепился, и Азербайджан приобрел большую политическую силу в регионе.

**Ключевые слова:** Тюркский фактор, Восточная Анатолия, Азербайджан, Гарагоюнлу, Аггоюнлу

**Получено: 30/09/2019** **Принято: 26/12/2019**

## Giriş

XV əsr Yaxın və Orta Şərqin hərbi-siyasi tarixinin ən mürəkkəb dövrüdür. Dövrün bu mürəkkəbliyi, bir tərəfdən, monqol hakimiyyətinin başa çatması ilə yerli idarəçiliyin bərpası, digər tərəfdən isə, ortaya çıxan yeni müsəlman dövlətlər və sülalələr arasında bölgədəki liderlik uğrunda mübarizənin kəskinləşməsi amilləri ilə bağlı idi. Bölgənin hərbi-siyasi durumunu mürəkkəbləşdirən digər bir amil isə – Avropa dövlətlərinin müstəmləkə ekspansiyasının başlaması idi. Hətta bəzi hallarda Avropa dövlətlərinin bu və ya digər bölgəni müstəmləkəyə çevirməsində yerli dövlətlərin dolayı yolla yardımları da olurdu.

Belə bir mürəkkəb hərbi-siyasi vəziyyətdə Azərbaycanda yerli dövlətçilik ənənələrinin bərpası (Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması və yüksəlişi) Azərbaycan tarixi üçün bir neçə səbəbdən kardinal hadisə idi: birincisi, Eldənizlərin dövlətinin süqutundan sonra (1225) başlanan və uzun sürən yadelli (monqol) hakimiyyət başa çatmışdı – hakimiyyətə Azərbaycan türk sülalələri gəlmişdi. İkincisi, bu sülalələrin hakimiyyəti Azərbaycanın tarixi torpaqlarının demək olar ki, tamamını əhatə edirdi. Üçüncüsü, bu Azərbaycan türk sülalələrinin qurmuş olduqları dövlətlər “Azərbaycanın daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, ölkəmizin və xalqımızın hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı. Bəhs olunan dövrdə Azərbaycan dövlətləri Yaxın və Orta Şərqin beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, Avropa – Şərq münasibətlərində də çox fəal iştirak edirdilər”.[1]

Azərbaycanın həm etnik-siyasi, həm dövlətçilik tarixində önəmli bir paya sahib olan Qaraqoyunlular və Ağqoyunlular Oğuz mənşəli olub Azərbaycan xalqının təşəkkülündə çox böyük rol oynamışdır. Bu tayfaların bu şəkildə adlandırılması ilə bağlı tarixşünaslıqda hələ də mübahisələr getməkdədir.[2] Bu mübahisələrin üzərində geniş bir şəkildə durmaq istəmirik, çünki bizim üçün daha önəmli məsələlər – Qaraqoyunluların və Ağqoyunluların mənşəyi, Azərbaycanda yayılması və Şərqi Anadoluya gəlişi, həmçinin bu etnik-siyasi prosesin bölgə üçün nəticələridir.

---

[1] YaqubMahmudov, *Azərbaycan: qısa dövlətçilik tarixi,* Bakı: “Təhsil”, 2005, 28.

[2] Bu barədə geniş bax: Tofiq Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir türk tarixşünaslığında)*, Bakı: “Çaşıoğlu”, 2012, 185-188.

**Qaraqoyunluların Azərbaycan uğrunda mübarizəsi**

Məlumdur ki, XIV əsrin sonu Azərbaycan uğrunda Əmir Teymurla Qızıl Orda xanı Toxtamış arasında gedən mübarizə Teymurilərin zəfəri ilə bitmişdi. Azərbaycan Qızıl Orda xanlarının basqınlarından xilas olsa da, Teymurilərin hakimiyyəti altına düşmüşdü.[3] Teymurun vəfatından sonra (1405) onun dövlətində başlayan hərcmərclik Azərbaycanı təkrardan böyük hərbi qarşıdurmaların mərkəzinə çevirdi. Şərəf xan Bidlisi yazır: “Hicri 807 yılının (1405) Şaban ayının 17-də çərşənbə gecəsində Əmir Teymur Gürgan Xita / Xata səfərində Otrar adlı yerdə uca Allahın rəhmətinə qovuşdu və bu səbəblə övladlarının arasına ixtilaf düşdü”.[4] Məhz bu illərdə də Yaxın və Orta Şərqin siyasi tarixinə Azərbaycanın türk əsilli tayfalarından olan Qaraqoyunlular və Ağqoyunlular fəal qatılmağa başladılar.

Oğuz mənşəli Qaraqoyunlu və Ağqoyunlu tayfaları hələ XIII əsrdə Şərqi və Cənub-Şərqi Anadoluda yüksəlməyi başarmışdılar. Bu tayfaların Azərbaycanda məskunlaşmasını isə Azərbaycan tarixçilərinin böyük bir qismi daha erkən dövrə - VIII-IX əsrlərə aid edirlər.[5] Qaraqoyunluların ilk vətəninin Şərqi Anadolu olduğu haqqında mülahizələr yürüdən Türkiyə tarixçilərindən fərqli olaraq, Z.M.Bünyadov və O.Ə.Əfəndiyev hesab edirlər ki, “sonralar qaraqoyunlu tayfalarının tərkibinə daxil olmuş tayfaların və qəbilələrin bir hissəsi artıq VIII-IX əsrlərdə Azərbaycanda məskunlaşmış və monqol istilası zamanı onlar bu torpaqlardan sıxışdırılıb çıxarılmışlar”.[6] Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinin Türkiyə tarixşünaslığını araşdıran T.N.Nəcəfli də yuxarıda adlarını qeyd etdiyimiz Azərbaycan tarixçilərinin bu fikrini dəstəkləməkdədir.[7] Türkiyə tarixçiləri İ.H.Uzunçarşılı, F.Köprülü, C.Zeynaloğlu, Z.V.Toğan və d. Qaraqoyunluların Azərbaycana Arqun xanın dövründə (1284-1291) gəldiklərini qeyd etməkdədirlər.[8] Başqa sözlə desək, Qaraqoyunlu tayfa ittifaqına daxil olan tayfalar monqolların təzyiqi ilə Şərqi Anadolu torpaqlarına köç etməli olmuşlar. XIV əsrin sonlarında isə əsası Bayram Xoca tərəfindən qoyulan Qaraqoyunlu bəyliyi yaranmışdır.[9]

---

[3] Azərbaycan Tarixi, 7 cilddə. Bakı: “Elm”, 2007, 3: 70.
[4] Şerefhan Bitlisi, *Şerefname. Osmanlı – İran tarihi.* Farsçadan çeviren Osman Aslanoğlu. İstanbul: “Nübihar”, 2011, 2: 80.
[5] Azərbaycan Tarixi, 3: 71.
[6]Fazlullah Hunci, *Tarih-i alam-arayi amini,* Perevod s angliyskogo na russkiy T.A.Minorskoy. Bakü: Elm, 1987, 6.
[7] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri,* 29.
[8] Azərbaycan Tarixi, 3: 71.
[9] Bitlisi, *Şerefname,* 2, 80.

Sonrakı hadisələr Qaraqoyunluların bölgədə sürətlə yayılmasına dələlət edir. Şərəf xan Bidlisi bu hadisələri aşağıdakı kimi təsvir edir: "Hicri 808-ci (1405/06) ilin əvvəllərində Əmir Teymur Gürganın oğlu Mirzə Miranşah Azərbaycandan Xorasana istiqamət aldı. Bu xəbər qardaşı Mirzə Şahruha çatanda onları qarşılamaq üçün Sufi Tarhan, Əmir Cahan Məlik və Əmir Firuz Şah kimi adamlardan ibarət bir qrupa 5000 süvari hazırlanmasını, əgər o zat ölkəni almaq və düşmənçilik üçün gəlirsə, onu geri oturtmalarını, əgər qardaşlıq üçün gəlirsə və ehtiram göstərərsə, ona xidmət edilməsini söylədi və onlara bir məktub verdi. Əmirlər barış və savaş qaydalarını ehtiva edən bu məktubu alıb yola düzəldilər. Kalbuş yaxınlığında Mirzə Miranşahın ordusuna yetişdilər. O zatın əlini öpüb Şahruhun məktubunu çatdırdılar. Mirzə Miranşah da sevgi və birlik ifadə edərək bunları dedi: "Allah qardaşıma səltənət, səadən və əbədi bir dövlət vermiş və biz də "biləyini qardaşınla gücləndirəcəyik" (Quran-i Kərim, Qəsəs, 28/35) ümidinin və "sizə bir sultan gətirəcəyik" (Quran-i Kərim, Qəsəs, 28/35) müjdəsinin gerçəkləşdiyini bildirdi"... Bu hadisələrin əsnasında Mirzə Əbubəkr Xan Sultaniyyə həbsxanasından qaçıb atasının yanına getdi. Görüşdükdən sonra ata və oğul ikisi də Azərbaycana istiqamət aldı".[10]

Məhz bu əsnada Qaraqoyunlu Qara Yusif Azərbaycan torpaqları uğrunda gedən bu ağır mübarizəyə qatıldı və zəfər çalmağı başardı. Şərəf xan Bidlisi yazır: "Hicri 810-cu (1407/08) ildə babasının iradəsi ilə Hülakü xanın taxtının varisi olan və atdan düşəndən sonra ağlı zərər görən Mirzə Miranşah bin Əmir Teymur Gürgan dövləti idarə etməkdə çətinlik çəkməyə başladı. Belə olan surətdə Qara Yusif ona qarşı üsyan etdi. Onların arasında Təbrizin Sərdrud bölgəsində böyük bir savaş oldu. Mirzə o savaşda öldürüldü. Beləliklə, Qara Yusif Azərbaycanı nəzarəti altına aldı".[11]

1408-ci il bəzi tarixçilər tərəfindən Azərbaycan Qaraqoyunlu dövlətinin yaranma ili olaraq qəbul edilir.[12] Bir qisim tarixçi isə bu dövlətin yaranma tarixi olaraq 1410-cu ili göstərirlər.[13] Məlum olduğu kimi, Teymurilər üzərində böyük qələbədən sonra Qaraqoyunluların Azərbaycanda möhkəmlənməsi Cəlayirilərin fəallaşmasına və Qaraqoyunlu-Cəlayiri qarşıdurmasına səbəb olmuşdu. Sultan Əhməd Cəlayiri ilə Qara Yusif Qaraqoyunlunun orduları arasında 1410-cu ilin 30 avqustunda baş vermiş döyüş (Əsəd kəndi/Təbriz) bu sonuncunun qələbəsi ilə başa çatmış, İraq torpaqları Azərbaycan

[10] Bitlisi, *Şerefname,* 2: 80.
[11] Bitlisi, *Şerefname,* 2: 80-81.
[12] bu barədə bax: Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 40.
[13] bax: Azərbaycan Tarixi, 3: 73.

Qaraqoyunlu dövlətinin tərkibinə qatılmışdı.[14] Məhz bu tarix bəzi tarixçilər üçün Azərbaycan Qaraqoyunlu dövlətinin yaranma ili olaraq qəbul edilməkdədir. “Azərbaycan tarixi”nin III cildində oxuyuruq: “1411-ci ildə Qara Yusif Təbrizdə Azərbaycan əyanları və Qaraqoyunlu əmirlərinin məclisində Pirbudağı “sultan” elan etdi, lakin dövlət işlərini bütövlükdə öz əlində saxladı. Beləliklə, Azərbaycan Qaraqoyunlu dövləti yarandı. Azərbaycanın Kürdən cənubdakı ərazisi, Ermənistan, Anadolunun Şərq vilayətləri və İraq-i Ərəb bu dövlətin daxilində idi”.[15]

Təəssüf ki, bu məsələ ilə bağlı Şərəf xan Bidlisinin “Şərəfnamə”sində hər hansı bir dəqiqləşdirməyə rast gəlmirik. Fikrimizcə, Azərbaycan Qaraqoyunlu dövlətinin yaranma tarixi olaraq 1408-ci ilin götürülməsi daha məqsədəuyğundur, çünki məhz bu tarixdə Qaraqoyunlu sülaləsi Azərbaycanın tarixi ərazisini öz nəzarəti altına almışdır. Cəlayirilərin üzərindəki 1410-cu ildəki zəfəri isə onun yaranma deyil, genişlənmə tarixi olaraq qəbul edilə bilər.

XV əsr, əvvəldə də qeyd etdiyimiz kimi, hərbi-siyasi hadisələr baxımından çox mürəkkəb bir dövr olmuşdur; yerli sülalələr arasında liderlik uğrunda gedən mübarizə yadelli dövlətlərin və işğalçı güclərin bu mübarizəyə müdaxiləsi və ölkəyə basqınları ilə müşayiət olunurdu. Qaraqoyunlular üçün də bu dövrdə ən böyük təhlükəni yadelli qüvvələr, xüsusilə Teymurilər yaratmaqda idi. Xorasanda qərar tutmuş Teymuri Şahrux Qaraqoyunluların 1419-cu ildə Sultaniyyəni və Qəzvini tutması səbəbilə Azərbaycan istiqamətində hərəkətə keçməsini sürətləndirdi.[16] Şərəf xan Bidlisi yazır: “Yenə bu il içində (1420) Mirzə Şahrux Qara Yusif ilə savaşmaq üçün Xorasandan böyük sayda əsgər ilə Azərbaycana yönəldi. Şahruxun ordusu İraq torpaqlarına gəlib çatanda Təbriz tərəfindən bir elçi gələrək Qara Yusifin Ucan civarlarda vəfat etdiyini ... xəbər verdi. Mirzə Şahrux həmin an Sultaniyyəyə gedib Baysunquru hücum üçün Təbrizə yolladı. Zülqəddə ayının ortalarında Sultaniyyəni aldı və oradan Qarabağa hərəkət etdi. Qışı orada keçirdi”.[17]

Qeyd edək ki, Qara Yusifin ölümü Qaraqoyunlu dövlətinin və ümumilikdə Azərbaycanın hərbi-siyasi inkişafı üçün ağır bir itki idi. Şərəf xan Bidlisidə Qara Yusifin şəxsiyyəti ilə bağlı geniş məlumata rast gəlməsək də, dövrün digər mənbələri onu güclü bir sərkərdə, adil bir hökmdar olaraq qiymətləndirirlər. Məsələn, Azərbaycan tarixçisi Həsən bəy Rumlu yazır: “Qara Yusif ədalət və mərhəməti ilə tanınmış, əxlaq

[14] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 41-42.
[15] Azərbaycan Tarixi, 3: 73.
[16] Azərbaycan Tarixi, 3: 73.
[17] Bitlisi, *Şerefname,* 2: 84-85.

yolunda hər kəsdən üstün idi. Zalımları cəzalandırmış, məzlumların rifahına çalışmış, təsərrüfatın inkişafına fikir vermiş, ölkənin qüdrətinin artmasına yardım göstərmiş, əsgərlərinin maaş və ərzağını müntəzəm olaraq ödəmişdir. Onun üzüyünün qaşında yazılmışdı: Ədalətlə iş görən hökmdar, zülm edən isə həlak olur”.[18]

Qeyd edək ki, Qaraqoyunluların Azərbaycanda güclənməsinə və yüksəlməsinə mane olan ən böyük amil Teymurilər idi. Xüsusilə Şahruxun yürüşləri Qaraqoyunluların hakimiyyətini zəiflətməklə yanaşı, ölkənin iri miqyasda viran və qarət edilməsinə səbəb olmuşdu. Üstəlik, Teymuri Şahrux Qaraqoyunlu dövlətinin daxilindəki mübarizədən də öz məqsədləri üçün istifadə edərək, onu daha artıq zəiflətməyə çalışırdı. Şərəf xan Bidlisi yazır: “833-cü (1429/30) ildə Mirzə Şahrux Azərbaycanın və qonşu bölgələrin idarəçiliyini Türkmən Qara Yusifin oğlu olan və hüzuruna çağırdığı Mirzə Əbu Səidə verdi və Qarabağdakı qışlaqdan Xorasana hərəkət etdi ... 835-ci (1431/32) ildə Azərbaycan tərəfindən biri gələrək Qara Yusifin oğlu Mirzə İsgəndərin ondan əvvəl Azərbaycanın idarəçiliyində olan öz qardaşı Əbu Səidi məğlubiyyətə uğradaraq öldürdüyünü və taxta keçdiyini xəbər verdi”.[19]

“Şərəfnamə”nin müəllifinin də yazdıqlarından göründüyü kimi, 1430-cu illərə doğru Azərbaycandakı hərbi-siyasi durum çox sürətlə dəyişməsi səbəbindən həm mürəkkəb, həm də qeyri-sabit idi. Qaraqoyunlu – Teymuri münasibətləri sadəcə ikitərəfli qarşıdurma olmayıb, həm Qaraqoyunluların daxilindəki hakimiyyət uğrunda gedən mübarizələrlə, həm də Azərbaycanın tamamını hakimiyyəti altına keçirməyə çalışan Şirvanşahlar dövlətinin də siyasi manevrləri ilə mürəkkəbləşmişdi. Bunun ardından Misir məmlük sultanının Diyarbəkri mühasirəyə alması, Şirvanşah Xəlilullahın yardım üçün müraciət etməsi və Qaraqoyunlu şahzadələr arasındakı mübarizənin güclənməsi Teymurilərin Azərbaycana üçüncü yürüşünə yol açdı.[20] “Şərəfnamə”də bu hadisələr aşağıdakı kimi təsvir olunur: “838-ci (1434/35) ildə Mirzə Şahrux türkmən tayfalarını geri atmaq məqsədilə Azərbaycana yürüşə başladı. Rey sərhəddinə gəlincə qış ayı olduğu üçün orada qışladılar. 839-cu (1435/36) ilin Məhərrəm ayının əvvəllərində Mirzə Şahrux Reydəki qışlaqdan Təbrizə yönəldi. Sultanın oraya istiqamət alır-almaz Mirzə İsgəndər Türkmən Təbrizi tərk etdi. Qardaşı Mirzə Cahanşah isə onun əksinə, Şahruxu hörmətlə qarşılayaraq ona hədiyyələr göndərdi. Mirzə Şahrux da Təbrizdə qaldı. O burada bir müddət qaldıqdan sonra Azərbaycandakı işləri qaydaya

[18] Hasan bey Rumlu, *Ahsenüt-tevarih.* Çeviren Mürsel Öztürk. Ankara: Türk Tarih Kurumu Yayınları, 2006, 132-133.
[19] Bitlisi, *Şerefname,* 2: 90, 91.
[20] Azərbaycan Tarixi, 3: 74; Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 145.

saldı. Rəbiü-s-sani ayının 8-də qışlamaq məqsədilə Aran Qarabağına istiqamət aldı. O, qışı Qarabağda keçirdi. Baharın əvvəllərində Uçana gəldi. Orada Azərbaycan ölkəsinin idarəçiliyini Qara Yusifin oğlu Mirzə Cahanşaha verib qırmızı damğalı əmirnaməni hazırladı; bu vilayətin düzən və idarəsini ona verib Xorasana geri döndü".[21]

Mirzə İsgəndərin ölümündən sonra qardaşı Mirzə Cahanşah Qaraqoyunlu taxtına əyləşdi. Özünü Teymurilərin varisi olaraq tanıdan Mirzə Cahanşahın Mirzə Şahruxla (onun 1446/7-ci ildə vəfatına qədər) hər hansı bir ciddi münaqişəsi baş vermədi. Bu səbəbdən, "Şərəfnamə"də və dövrün digər mənbələrində biz Azərbaycan Qaraqoyunlu dövlətinin hərbi-siyasi tarixi ilə bağlı geniş məlumata rast gəlməməkdəyik.

Mirzə Şahruxun vəfatından sonra Teymuri şahzadələri arasında hakimiyyət uğrunda başlamış mübarizədən istifadə edən Qaraqoyunlu Cahanşah faktiki olaraq müstəqil oldu və hərbi-siyasi cəhətdən daha da gücləndi. Qeyd edək ki, Qaraqoyunlu hökmdarı Cahanşah Teymuri dövlətindəki daxili çəkişmələrdən istifadə edərək başladığı hərbi səfərlərini genişləndirmək imkanına sahib idi. Lakin onun öz dövlətinin daxilində siyasi vəziyyət ağır olduğu üçün, Teymurilərə bəzi güzəştlərə getməli oldu. Belə ki, Mirzə Cahanşah Heratda olarkən Teymuri hökmdarı Mirzə Sultan Əbu Səid ona sülh təklif etdi. Bununla əlaqədar Şərəf xan Bidlisi yazır: "863-cü (1458/59) ildə Mirzə Sultan Əbu Səid Bəlx yaxınlığında Mirzə Cahanşahın səltənət mərkəzi Herata gəldiyini öyrəndiyində savaş meydanına yönəldi. Bir neçə gün Murğab çayının sahilində qaldı. Mirzə Cahanşahın yanına elçi göndərib "Bizim irsi torpaqlarımızdan vaz keçib Mirzə Şahruxun sənə bağışladığı Azərbaycan məmləkəti ilə kifayətlən" deyə xəbər yolladı. Mirzə Əbu Səidin elçiləri Cahanşahın yanına gəlib Mirzənin xəbərini çatdırınca Cahanşah da Azərbaycan tərəfindən pis xəbərlər eşitdiyi üçün elçilərin sözünü böyük bir xilas bilib sülhü qəbul etdi. Mirzə Şahruxun oğlu Mirzə Baysunqurun oğlu Mirzə Sultan Məhəmmədin oğlu Mirzə Yadigar Məhəmmədi də yanına alıb Azərbaycana geri döndü".[22] Qaraqoyunlu Cahanşahın Teymuri Əbu Səidlə bağladığı sülhə görə, "İraq-i Əcəm, Fars və Kərman bölgələri Qaraqoyunlu dövlətinin tərkibində qaldı, Xorasan bölgəsi Teymurilərə qaytarıldı".[23]

Sonrakı illərdə Qaraqoyunlu hökmdarı Mirzə Cahanşah oğlu Pir Budağın qiyamını yatırmaqla məşğul olmaq məcburiyyətində qaldı. "Şərəfnamə"də təsvir olunan hadisələrin gedişatından bəlli olur ki, Pir Budaq Bağdadda da atasına qarşı müxalifətini

---

[21] Bitlisi, *Şerefname,* 2: 93.
[22] Bitlisi, *Şerefname,* 2: 108-109.
[23] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 149; İsmail Aka, *Timur ve devleti*, Ankara: Türk Tarih Kurumu Basımevi, 1991, 83-89.

davam etdirmiş, bu səbəbdən, "Mirzə Cahanşah 870-ci (1465/66) ilin sonlarında oğlu Pir Budağı endirmək məqsədilə Bağdada yürüş etdi. 871-ci (1466/67) ildə Mirzə Cahanşah Bağdadı bir il boyunca mühasirədə saxladıqdan sonra ələ keçirdi. Oğlu Pir Budağı isə orda edam etdirdi və Bağdadın fəth edildiyinə dair bir məktubu elçi ilə Mirzə Sultan Əbu Səidə göndərdi".[24]

Hakimiyyətinin sonunda başı Teymurilərlə savaşlara və dövlətinin daxilindəki mübarizəyə qarışmış Qaraqoyunlu Cahanşah üçün 1467-ci ilə doğru yeni bir rəqib – Ağqoyunlu Həsən bəy çıxdı. Qaraqoyunluların Ağqoyunlularla mübarizəsi Şərəf xan Bidlisi tərəfindən çox geniş bir şəkildə təsvir edilmişdir. Eyni kökdən gələn bu iki Azərbaycan türk sülaləsi arasında başlamış mübarizə Qaraqoyunlu dövlətinin siyasi səhnədən çıxması, onun yerində Ağqoyunlu dövlətinin yüksəlişi ilə başa çatdı.

**Ağqoyunlu tayfalarının Şərqi Anadoluda məskunlaşması**

Ortaəsrşünaslara məlumdur ki, "Ağqoyunlu etnik birliyinin başında Bayandur qəbiləsi dururdu və bununla əlaqədar olaraq Ağqoyunlular "Bayanduriyyə" də adlandırılırdılar".[25] Şərəf xan Bidlisi əsərində Uzun Həsəndən bəhs edərkən, onu bəzən "Ağqoyunlu Kutluğ bəyin oğlu Qara Osmanın oğlu Əli bəyin oğlu Həsən bəy", bəzən isə "Həsən bəy Bayanduri/Bayandırlı" adlandırır.[26] Digər bir müəllif – Əbubəkr Tehrani özünün "Kitab-i Diyarbəkriyyə" əsərində Uzun Həsənin şəcərəsini verərkən "Uzun Həsənin ulu babası Ağqoyunlu dövlətinin qurucusu olan Qara Yülük Osmanı bir-bir adlarını saymaqla, Bayandur xan vasitəsilə 52-ci babası ilə Oğuz xana çıxararaq Ağqoyunluların Oğuz elinin Bayandur boyundan bir sülalə olduğunu göstərir".[27]

Orta əsr tarixçilərinin böyük bir qismi Ağqoyunlu/Bayanduri tayfalarının çox qədimdən Şərqi Anadoluda yerləşdiklərini, Diyarbəkir vilayətinin onlara səlcuq sultanları tərəfindən iqta olaraq verildiyini göstərməkdədirlər.[28] Müasir tarixçilərin böyük bir qismi isə Ağqoyunluların Şərqi Anadoluya Azərbaycandan gəldiklərini qəbul etməkdədirlər. Məsələn, Türkiyə tarixçiləri F.Kırzıoğlu və X.Koroğlu Ağqoyunluların Türküstandan Qıpçaq ölkəsinə, oradan isə VII əsrdə Azərbaycana gələrək burada məskunlaşdıqlarını, bir müddət sonra isə (səlcuqlu dönəmində) Diyarbəkrə köçdükləri fikrini irəli sümüşlər.[29] Z.Tunç da 1071-ci il Malazgird Meydan müharibəsindən sonra

[24] Bitlisi, *Şerefname,* 2: 110.
[25] Azərbaycan Tarixi, 3: 79.
[26] Bitlisi, *Şerefname,* 2: 109, 110.
[27] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 188.
[28] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 187.
[29] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 189.

türkmən bəylərin Anadoluda yerləşdiyini yazır: "Burada bilinən ilk türk bəyliyi Çubukoğullarıdır. Onun ardından Artuklu bəyliyi fəal olmuşdur. Anadolu Səlcuqlu dövləti Anadoluda siyasi birliyi qorumaq üçün bir dönəm hakimiyyət qurmuşdur. Sonrasında Dülkadiroğulları və onun da ardından Ağqoyunlular gəlmişdir. Bölgədə siyasi üstünlük qurmaq mücadiləsində Ağqoyunlular Dülkadirli Bəyliyinə üstün gəlmişlər ... Uzun Həsən dövlətini Osmanlı Dövlətindən sonra Anadoluda ən güclü dövlət statusuna gətirmişdir".[30] Türkiyənin digər bir tarixçisi F.Sümerə görə isə, Ağqoyunlular Şərqi Anadoluya səlcuq yürüşləri zamanında deyil, monqol istilası zamanında gəlmişlər.[31] Eyni fikrə Azərbaycanın mədəniyyət tarixini araşdıran X.Qasımlıda da rast gəlirik.[32]

Azərbaycan tarixçisi Ş.M.Mustafayev isə, əksinə, hesab edir ki, "Ağqoyunlu Uzun Həsənin hakimiyyəti dövründə türklərin *Şərqi Anadoludan köçü* (kursiv bizimdir – Y.Ç., E.Ç.) başlamışdır. Uzun Həsənin Qaraqoyunlu dövlətini darmadağın edib 1468-ci ildə paytaxt Təbrizi ələ keçirməsindən sonra Ağqoyunlu tayfalarının böyük bir qismi yeni dövlətin etnik və hərbi-siyasi dəstəyinin yaradılması məqsədilə Azərbaycana və İranın müxtəlif bölgələrinə yerləşdirildi. Bu köçün nəticəsində Kiçik Asiyanın şərqində türk elementi zəiflədi və müvafiq olaraq kürd tayfalarının rolu və tisiri gücləndi. Bu dəyişikliklər XVI əsrin əvvəllərində bölgədə cərəyan edən siyasi və hərbi hadisələrin inkişafına ciddi təsir etmiş oldu. Belə ki, Ağqoyunluların hakimiyyəti qızılbaş hakimiyyəti ilə əvəz olundu və bölgə uğrunda Osmanlı-Səfəvi mübazirəsi başladı".[33]

Şərqi Anadoludan türklərin köç etməsi və burada qeyri-türk faktorunun artması fikrinə birmənalı yanamaq olmaz; bizim fikrimizcə, Şərqi Anadoluda türk faktorunun zəifləməsi daha sonrakı dönəmə - XIX əsrə aiddir. Amma dövr olaraq məqalənin xronoloji çərçivəsindən kənar olduğu üçün üzərində ətraflı durmayacağıq. Ağqoyunlular bölgədə Azərbaycan türklərinin güclənməsində rol oynamış siyasi qüvvə olaraq görülməlidir. Ş.M.Mustafayev özü də Şərqi Anadolunun türklər və digər müsəlman əhali tərəfindən intensiv məskunlaşmasını buradakı türk və monqol dövlətlərinin, o cümlədən Qaraqoyunluların və Ağqoyunluların hakimiyyəti ilə əlaqələndirir.[34] Məsələn,

---

[30] Zekiye Tunç, "Akkoyunlular döneminde Harput", *Fırat Üniversitesi Harput Uygulama ve Araştırma Merkezi, Geçmişten Geleceğe Harput Sempozyumu*, Elazığ, 23-25 mayıs 2013, 577.
[31] Faruk Sümer, "Akkoyunlular", *Türk Dünyası Araştırmaları*, sayı 40, İstanbul, 1986, 314; həmçinin bax: Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 189.
[32] Xeyirbəy Qasımov, *Orta əsrlərdə Azərbaycan mədəniyyəti,* Bakı: "Aspoliqraf", 2008, 144.
[33] Şahin Mustafayev, *Vostoçnaya Anatoliya. Ot Akkoyunlu k Osmanskoy imperii*, Moskova: Vostoçnaya literatura, 1994, 17.
[34] Mustafayev, *Vostoçnaya Anatoliya. Ot Akkoyunlu k Osmanskoy imperii*, 16-17.

N.Göyünçdən gətirdiyi iqtibasda tarixçi Ağqoyunlu hökmdarı Həmzənin əmri ilə Mardin və ətraf bölgələrə türkmən tayfalarının yerləşdirildiyini yazır.[35]

Azərbaycana gəlincə, Qaraqoyunlu tayfalarının Azərbaycanda məskunlaşmasını Azərbaycan tarixçilərinin böyük bir qismi daha erkən dövrə - VIII-IX əsrlərə aid edirlər. Onlarla eyni kökdən olan Ağqoyunluların Azərbaycana gəlməsini isə bir qisim tarixçi daha erkən dövrə aid etməkdədir. Akademik Yaqub Mahmudov yazır ki, “İlk oğuzlar başqa türk tayfaları kimi, ümumtürk məkanının tərkib hissəsi olan Cənubi Qafqaza, o cümlədən, Azərbaycan ərazisinə qədim türklərin “Dəmir Qapı” adlandırdıqları Dərbənd keçidi vasitəsilə, habelə Böyük Qafqazın başqa dağ aşırımlarından keçərək yayılmışdılar”.[36] Yuxarıda adını qeyd etdiyimiz Əbubəkr Tehraninin “Kitab-i Diyarbəkriyyə” əsərinə istinadən Yaqub Mahmudov “Ağqoyunluların və Qaraqoyunluların Azərbaycanın, həmçinin, bütövlükdə Cənubi Qafqazın və Ön Asiyanın ən qədim sakinlərindən biri olduğunu göstərir.[37]

Ağqoyunlu tayfalarının Azərbaycana erkən dövrdə – V-VI əsrdə gəldikləri fikrini Türkiyə tarixçiləri içərisində dəstəkləyənlər də vardır. Belə ki, məşhur araşdırmaçı Z.V.Togan Bayandurilərin digər hun tayfaları kimi V əsrdə Azərbaycana gələrək Göyçə gölü – Van gölü bölgəsində yerləşdiklərini, Azərbaycanın cənub-qərb torpaqlarında məskunlaşmış Ağ Hunlarla Ağqoyunlular arasında bir əlaqə olduğunu göstərir.[38]

T.H.Nəcəfli Türkiyə tarixçilərinin – F.Sümer, M.H.Yınanç, Z.V.Togan, A.Çay, İ.Akanın mülahizələrini ümumiləşdirərək göstərir ki, “Ağqoyunlu tayfa birliyində müstəqil Ağqoyunlu tayfası olmamışdır. Tayfa birliyində Bayandur boyu ilə yanaşı, Oğuzların Bayat, Dögər, Çepni, İnallı boylarının Azərbaycanın cənub-qərbində və Şərqi Anadoluda yaylaq-qışlaq həyat tərzi keçirən tayfaları və sonralar Cagirli, Ərəbgirli, Biçən, Düharlı, Bayramlı, Hacılı, Mosullu, Pornək, Qoca Hacılı tayfaları, Uzun Həsənin Qaraqoyunlular üzərindəki qələbəsindən sonra isə Əfşar, Sədlu, Ağmalı, Qacar, Alpaut, Ağaçəri və Qaramanlı tayfaları da daxil olmuşdur”.[39]

Ağqoyunluların mənşəyi, yerləşmə arealı, Azərbaycanda yayılmaları və Şərqi Anadoluya gəlmə tarixləri ilə bağlı tarixşünaslıqda fikirlər, ilk baxışdan, müxtəlif görünə bilər. Əslində isə bu fikirlərin çoxu təzadlı olmayıb, Ağqoyunlu tayfa ittifaqına

---

[35] bax: Nejat Göyünç, *XVI. Yüzyılda Mardin Sancağı,* İstanbul: İstanbul Üniversitesi Eğitim Fakültesi Yayınları, 1969, 75.
[36] Mahmudov, *Azərbaycan: qısa dövlətçilik tarixi,* 17-18.
[37] Mahmudov, *Azərbaycan: qısa dövlətçilik tarixi,* 18.
[38] Zeki Togan, *Oğuz destanı, Reşideddin Oğuznamesi, tercüme ve tahlili,* İstanbul: Ahmet Sait matbaası, 1972, 117, 118, 122, 146; həmçinin bax: Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 190.
[39] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 190-191.

daxil olan tayfaların bölgənin qədim məskunlarından biri olduğu, ən önəmlisi isə, Şərqi Anadoluda Azərbaycan türk faktorunun güclənməsində böyük rol oynadıqlarını yekdilliklə göstərməkdədir.

**Ağqoyunlu dövlətinin yaranması və qonşu dövlətlərlə münasibətləri**

Əvvəldə də dediyimiz kimi, XV əsr, xüsusilə əsrin ikinci yarısı müsəlman Şərqi üçün bir-birini sürətlə əvəz edən hərbi-siyasi hadisələrlə zəngindir. Ağqoyunlu tayfa ittifaqının da siyasi amil olaraq güclənməsi, Azərbaycanda və Şərqi Anadoluda yüksələrək güclü bir dövlət qurması bu mürəkkəb dövrə təsadüf etməkdədir. Məlumdur ki, 1435-ci ildə Ağqoyunlu Qara Osmanın vəfatından sonra hakimiyyət uğrunda başlamış olan mübarizə 20 ilə yaxın çəkdi və 1453-cü ildə Uzun Həsənin qələbəsi ilə nəticələndi. “Uzun Həsən Ağqoyunlu tayfa ittifaqını daha da möhkəmlətmək və bu ittifaqın ərazisini Azərbaycan torpaqları hesabına genişləndirmək, Azərbaycanın cənub vilayətlərində hakimiyyəti ələ keçirmək, orada hökmranlıq edən Qaraqoyunlulara qarşı mübarizə aparmaq üçün tədbirlər görməyə başladı”.[40]

Qaraqoyunlularla Ağqoyunlular arasındakı qanlı mübarizə “Şərəfnamə”də geniş bir şəkildə verilməkdədir. Şərəf xan Bidlisinin hadisələri təsvir edərkən Uzun Həsənə olan simpatiyası açıq bir şəkildə özünü göstərir: “872-ci (1467/68) ilin Şəvval ayının 10-da Mirzə Cahanşah Bayandurlu Həsən bəy ilə savaşmaq üçün Təbrizdən çıxıb Diyarbəkrə istiqamət aldı. Bu xəbər Həsən bəyə çatınca ordusunu topladı. Qardaşı Cahangir bəy də oğulları Murad bəy və İbrahim bəy ilə birlikdə ona qoşuldu. O əsnada Allahın kitabından təfəül edincə aşağıdakı ayə çıxdı: “Fironun üstünə get. Həqiqətən o üsyan etmişdir” (20-ci surə, 25-ci ayə). Mirzə Cahanşah Muş ovasına gəldiyində mötəbər əmirlərindən olan və qabaqcıl qüvvələrin komandanı seçilən Qasım Pərvanəçi böyük bir məğlubiyyətə uğradıldı. Ağqoyunluların bahadırları ətrafda savaşaraq düşmən əsgərlərini öldürür və əsir alırdılar. Mirzə Cahanşah Əbtur yaxınlığında bir neçə gün qaldı. Daha sonra komandanları ilə məsləhətləşib geri döndü. Bu səbəbdən Ağqoyunlu komandanları dedilər ki, “O bizə bir zərər vermədiyi üçün biz də geri dönək”. Həsən bəy bunu qəbul etmədi. Mirzə Cahanşah oradan ayrılıb dağın ətəyinə endi və oradan Çabakçura (indiki Bingöl) bağlı olan Hancıka gəldi. Həsən bəy ordusundan 6000 yaxşı atlı ilə çıxıb savaşa girdi. Bu əsnada kəşfiyyatçı qüvvələr “Mirzə Cahanşahın ordusunu qabaqdan göndərdiyini, özünün isə bir neçə nəfər adamı ilə iqamətgahında yatdığını” xəbər verdilər. Həsən bəy də hücuma keçdi. Yatdığı məkana çatdığında Mirzə

[40] Azərbaycan Tarixi, 3: 82.

Cahanşaha onun gəldiyini xəbər verdilər. Mirzə Cahanşah ata minib hərəkətə keçdi. Qəflətən oradan naməlum biri Mirzə Cahanşaha çatıb ona ağır bir zərbə vurdu. O da bağıraraq "Məni öldürmə! Həsən bəyin yanına apar ki, sənə xələt versin" dedi. Aldığı yara səbəbilə gücsüz qalaraq yerə yıxıldı. Naməlum adam onun başını kəsib özünə zərər gələr deyə, gizlətdi. Sonradan onun atını və əşyalarını görüb tanıdılar. Həsən bəy Mirzə Cahanşahın başını çıxardı və Sultan Əbu Səidin yanına, Xorasana göndərdi. Onun oğulları Məhəmməd və Yusif ələ keçirildi. Məhəmməd öldürüldü, Yusifin isə gözlərinə mil çəkildi. Həsən bəy isə oradan qalib bir şəkildə ayrılaraq qışlaq mənzilinə doğru hərəkət etdi.[41]

Qeyd edək ki, Uzun Həsənin Qaraqoyunlular üzərindəki bu böyük qələbəsi digər müsəlman dövlətlərini, o cümlədən Teymuriləri ciddi bir şəkildə narahat etdi. 1468-ci ilin sonu - 1469-cu ilin əvvəllərindəki hadisələri təsvir edən Şərəf xan Bidlisi yazır ki, "873-cü (1468/69-cu) ilin əvvəllərində Mirzə Sultan Əbu Səid Mirzə Cahanşahın intiqamını almaq üçün Bayandurlu Həsən bəyin üzərinə hücum etmək məqsədilə ordusunu Xorasandan Azərbaycana gətizdirdi. Əbu Səidin güclü ordusu Miyanə kəndinə çatıb orda qərargah qurdu. Lakin qəflətən şiddətli bir soyuq və böyük bir bulud göyün üzünü örtdü, uzun müddət günəş görünmədi, ulduzlar da çıxmadı. Bu səbəblə Mirzə Sultan Əbu Səid əmirlərini və komandanlarını çağırıb onlarla yurd və qışlaqların təyin edilməsi mövzusunda müzakirələr etdi. Onların hamısı o əsnada Qarabağda olan Həsən bəyi ordan uzaqlaşdırıb onun yerində qışlaq qurmağa qərar verdilər. Böyük ordu bu məqsədlə Aran Qarabağına doğru hərəkət etdi. Qarabağa 7 fərsəx məsafədə olan bir yerə çatdıqlarında əmirlər ərzaq qıtlığı yaşadıqları üçün onlara dostluq təklif etmiş olan Şirvanşahın da bu orduya qatılması üçün Mahmudabad və Qızılağac tərəfinə getməyə qərar verdilər. Bu məqsədlə ordan ayrılıb otları zəhərli olan bir yerə çatdılar. Ordakı otlardan yeyən bütün heyvanları tələf oldu. Daha sonra sultanın ordusu Muğan vadisinə yetişdi. Lakin aclıq və qıtlıq elə bir həddə çatdı ki, taxılın azlığından 10 dinara 1 mann buğda belə tapmaq mümkün deyildi. Həsən bəy də böyük yolları nəzarəti altına alıb sultanın ordusuna ərzaq daşınmasına icazə vermirdi".[42]

Mənbələrin məlumatlarından da görünür ki, Ağqoyunlularla Teymurilər arasında uzun uzadı bir diplomatik mübadilə getmişdir. Şərəf xan Bidlisi bu hadisələri aşağıdakı kimi davam etdirir: "Çox sayda məktub və yazışmalardan sonra Əmir Həsən bəy Seyid Ərdəbilini elçi olaraq Mirzə Sultan Səidin yanına yolladı. Geri gəlincə adam dedi ki,

---

[41] Bitlisi, *Şerefname,* 2: 110-111.
[42] Bitlisi, *Şerefname,* 2: 112.

"Xorasanlılar çox pis və pərişan vəziyyətdədirlər və onlarla sülh bağlanmamalıdır. Çünki onlar yaxında biabırçı bir şəkildə qaçacaqlar". Bu səbəbdən Mirzə Həsən bəy Mirzə Sultan Əbu Səidin sülh üçün yolladığı adamların getməsinə izn verdi. O adamlar Əbu Səidin hüzurlarına çatdıqlarında artıq Həsən bəyin qoşunlarının qaraltısı göründü".[43]

Qeyd edək ki, Teymurilərin məğlubiyyət səbəbləri içərisində təkcə hərbi və taktiki zəiflik deyil, daxili qarışıqlıq da az rol oynamamışdı. Qeyd edək ki, "Teymuri sultanı Ağqoyunlularla qədim dostluğu xatırladaraq azad edilməsini xahiş etsə də, Uzun Həsən buna əməl etmədi".[44] Şərəf xan Bidlisi bu hadisənin detalları üzərində çox dayanmır, amma Ağqoyunlu tarixçisi Əbubəkr Tehrani Uzun Həsənlə Əbu Səid arasındakı son görüşməni daha geniş bir şəkildə aşağıdakı kimi təsvir etməkdədir: "Sultan buyurdu: "Bizimlə sizin nəsil arasında 100 illik dostluq və 3 aylıq ədavət var. Azacıq ədavətə görə köhnə dostluq haqqını itirməzlər". Sahibqran buyurdu: "Şahrux Mirzənin xanədanı ilə bizim xanədanımız arasında dostlqu olub, mənimlə sənin aranda heç bir dostluq olmayıb. İndi Şahrux Mirzənin xanədanından Yadigar Məhəmməd Mirzə bizim yanımızdadır və biz möhtərəm babasının haqqını ona qaytarırıq, ona hər cür ehtiram göstəririrk.[45]

Beləliklə, Uzun Həsən Teymuri Əbu Səidi əfv etmədi, onun edamından sonra isə Teymuri taxtına müttəfiqi Yadigar Məhəmmədi oturtdu. Bununla, əslində Ağqoyunlular üçün Şərqdə böyük təhlükə yaradan Teymuri dövləti neytrallaşdırıldı. Türkiyə tarixçisi F.Sümerin də göstərdiyi kimi, "bu parlaq zəfərlər Həsən bəyə Qaraqoyunlu dövlətinin bütün torpaqlarını qazandırdı. Bununla da Həsən bəy Xorasandan Sivasa qədər uzanan daha geniş bir dövlətin sahibi oldu ... Bundan sonra mənbələrdə bu böyük hökmdar "Sultanül-adil Həsən xan", "Sultanül-qalib Həsən Padişah" adları ilə qeyd olunmağa başladı".[46]

Əlbəttə, Uzun Həsənin dövləti hərbi baxımdan güclü olsa da, siyasi və sosial baxımdan zəif tərəfləri də vardı. Ələlxüsus, əyalətlərdəki hakimlərin mərkəzi hakimiyyətə qarşı itaətsizliyi, taxt-tac uğrunda padşahın oğulları arasında gedən mübarizə Ağqoyunlu dövlətini zəiflətməkdə idi. Qaraqoyunluları və Teymuriləri ağır məğlubiyyətə uğratdığı 1468 və 1469-cu illərdə belə Uzun Həsənə qarşı daxili müxalifət

---

[43] Bitlisi, *Şerefname,* 2: 112.
[44] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 290.
[45] Əbubəkr Tehrani, *Kitabi-Diyarbəkriyyə*. Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilər R.Şükürovanındır. Bakı: "Elm", 1998, 262.
[46] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 291.

Cilt:6 / Sayı:5
Kış 2019

gücləmnişdi. Bir çox hallarda isə bu müxalif güclər xarici dövlətlərin hökmdarları (daha çox Osmanlı sultanları) tərəfindən dəstək görməkdə idilər. Şərəf xan Bidlisinin yazdıqlarından məlum olur ki, Uzun Həsənin Teymuri taxtına yuxarıda adı çəkilən Yadigar Məhəmmədi əyləşdirməklə Xorasanda möhkəmlənmək cəhdləri uğurlu olmamışdır.[47]

"Şərəfnamə"nin müəllifi göstərir ki, "875-ci (1470/71-ci) ildə Mirzə Yadigar Məhəmməd Mirzə Sultan Hüseynə məğlub olduqdan sonra Simnana istiqamət götürərək Həsən bəydən yardım istədi. Həsən bəy Azərbaycandan böyük sayda əsgəri onun yardımına göndərdi. Beləliklə, [Mirzə Yadigar Məhəmməd] yenidən Xorasana yönəldi. Mirzə Sultan Hüseyn təkrar onun qarşısına çıxdı. Səbzvara gəlib çatdığında Xorasanın vəfasız əmirləri ondan üz çevirib Mirzə Yadigar Məhəmmədə qoşuldu. Beləliklə, [Mirzə Sultan Hüseyn] müqavimət göstərmək gücü olmadığından Morğab tərəfinə getdi. Mirzə Yadigar Məhəmməd də onun ardından Herata gəlib taxta oturdu. Hakimiyyətinin üzərindən 40 gün keçdikdən sonra Mirzə Sultan Hüseyn bir gecə Babailahi adlı yerdən çıxaraq bir neçə adamı ilə hücuma keçdi. Baği-Zağanda [Mirzə Yadigar Məhəmmədin] üzərinə hücum edib bağçada onu öldürdü. Bundan sonra təkbaşına Xorasan və Heratın padişahı oldu".[48]

Beləliklə, Uzun Həsənin dövründə yüksələn Ağqoyunlu dövləti bir tərəfdən xarici təhlükələr, digər tərəfdən yerlərdəki mərkəzdənqaçma qüvvələrin doğurduğu siyasi pərakəndəlik səbəbilə XV əsrin 70-ci illərinə doğru böyük problemlərlə üzləşdi. 1478-ci ildə Uzun Həsən vəfat etdi və Ağqoyunlu dövlətinin hərbi-siyasi vəziyyəti ağırlaşmağa başladı.

**Ağqoyunlu dövləti Uzun Həsənin varislərinin dövründə**

Uzun Həsənin hələ sağlığında dövlətində başlamış olan siyasi pərakəndəlik onun vəfatı ilə bir az dərinləşmiş oldu. Uzun Həsənin "yeddi erkək övladı var idi: Uğurlu Məhəmməd, Maqsud bəy, Zeynal bəy, Sultan Xəlil, Mirzə Yaqub, Mirzə Yusif və Mirzə Məsih. Onlardan Uğurlu Məhəmməd və Zeynal bəy hələ ataları həyatda ikən vəfat etmişdilər. Sultan Xəlil isə atasının vəfatı ilə taxta keçdi. Təbrizdəki Maqsudiyyə məscidini inşa etdirən qardaşı Maqsud bəyi isə öldürtdü".[49] T.Nəcəfli qeyd edir ki, "Bu, Ağqoyunlular arasında Osmanlı tərzində ilk qardaş qətli idi".[50]

[47] Bitlisi, *Şerefname,* 2: 113-114.
[48] Bitlisi, *Şerefname,* 2: 114.
[49] Bitlisi, *Şerefname,* 2: 116.
[50] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 197.

Fəzlullah Xuncinin yazdığına görə, Sultan Xəlil qardaşları Yaqub və Yusifi Diyarbəkrə göndərərək öz mövqeyini möhkəmləndirməyə çalışdı.[51] Bu məqsədlə o dövlətin idarəçiliyinə özünə sadiq olan insanları gətirdi, əvvəlki əmirlərin isə hakimiyyətini məhdudlaşdırmağa çalışdı. Lakin bu tədbirlər onun gözlədiyi nəticəni vermədi, əksinə, müxalif qüvvələrin qardaşı Mirzə Yaqubun ətrafında toplanmasına və üsyan etməsin"ə səbəb oldu. Şərəf xan Bidlisi yazır ki, "883-cü (1478/79-cu) ilin yazında Mirzə Yaqub qardaşı Sultan Xəlilə qarşı çıxdı. Həmin ilin Rəbiü-s-sani ayının 14-də çərşənbə günü Xoy çayı sahilində iki qardaş arasında ağır bir döyüş oldu. Sultan Xəlil öldürüldü və Mirzə Yaqub Təbrizə gələrək taxta oturdu. Mirzə Yusif və Mirzə Məsih böyük qardaşlarına tabe olmağı qəbul etdilər".[52]

Şərəf xan Bidlisi Ağqoyunlu hökmdarı Sultan Yaqubun idarəçiliyi haqqında geniş məlumat verməsə də, digər mənbələrdən məlum olur ki, onun mərkəzi hakimiyyəti gücləndirmək tədbirləri (məsələn, qardaşı Sultan Xəlilin tərəfdarlarını cəzalandırması, Mihmad bəy Alpautu və Qara Məlik Təvaçini edam etdirməsi, ya da əksinə, bəzi müxalif sərkərdələri əfv etməsi) "bəzi əmirlərin müxalifətə keçməsinin qarşısını ala bilmədi".[53] Buna baxmayaraq, bir qisim tarixçi Sultan Yaqubun hakimiyyəti dövrünü (1478/79-1490) Ağqoyunlu dövlətinin parlaq səhifəsi olaraq göstərməkdədirlər.[54]

Sultan Yaqubun 12 illik hakimiyyəti dövründə Ağqoyunlu dövlətinin daxilindəki müxalif güclərin tabe etdirilməsini çətinləşdirən durumlardan biri də xarici təhlükənin sovuşmaması, xüsusilə Misir məmlük dövlətilə olan mürəkkəb münasibətlər oldu. İstənilən halda, 1490-cı ildə Sultan Yaqubun ağır xəstəliyə düçar olması və az sonra da vəfatı Ağqoyunlu dövlətinin daxilindəki problemləri açıq bir şəkildə üzə çıxarmış oldu. Şərəf xan Bidlisi bununla əlaqədar yazır: "895-ci (1489/90-cı) ildə Sultan Yaqub Qarabağ qışlağında ağır bir xəstəliyə düçar oldu. Qardaşı Yusif bəy və anası da eyni şəkildə xəstələndi. Anası Zülhiccə ayının 28-də Allahın rəhmətinə getdi. O və qardaşı eyni xəstəlikdən əziyyət çəkirdi, bu səbəbdən də anasının vəfatını onlardan gizlətdilər. 896-cı (1490/91-ci) il Məhərrəm ayının 10-da Cümə gecəsi Sultan Yaqubun qardaşı Yusif bəy vəfat etdi. Sultan Yaqubun da xəstəliyi artdı və Səfər ayında Cümə axşamı günorta namazı vaxtı o da ana, ata və qardaşının ardınca vəfat etdi. Sultan Yaqubun

---

[51] Hunci, *Tarih-i alam arayi amini*, 45.
[52] Bitlisi, *Şerefname*, 2: 116.
[53] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 202.
[54] Sümer, *Akkoyunlular*, 25-26; Seyfettin Erşahin, *Akkoyunlular. Siyasal, kültürel, ekonomik ve sosyal tarih*, Ankara: Özel Baskı Yayın Evi, 2002, 115; həmçinin bax: Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 203.

oğlu Mirzə Baysunqur Sufi Xəlilin və musullu [tayfasından olan] əmirlərin yardımı ilə padişahlığa keçdi və Ağqoyunlu əmirlərinin arasında hərcmərclik başladı”.[55]

Şərəf xan Bidlisinin və onun müasirlərinin bəhs etdiyi hərcmərclik Ağqoyunlu dövlətinin hərbi-siyasi vəziyyətini çox ağırlaşdırdı. Sultan Yaqubun vəfatı ilə hakimiyyət uğrunda başlayan mübarizə nəticəsində Ağqoyunlu taxtına Mirzə Baysunqur gəlsə də, güclü mövqeyə sahib olan əmirlərin bir qismi bu hakimiyyəti qəbul etməmişdi, çünki Mirzə Baysunqur azyaşlı olduğu üçün dövlətin idarəçiliyi faktiki olaraq onun lələsi Sufi Xəlildə idi. [56]

Ağqoyunlu taxt-tacına namizədlərdən olan Mahmud bəyin öldürülməsi dövlətin daxilindəki hərbi-siyasi gərginliyi aradan qaldırmadı. Əksinə, Sufi Xəlilin bu cəsarəti ona qarşı digər böyük əmirlərin müxalifətini gücləndirdi. Belə ki, Şərəf xan Bidlisinin də yazdığı kimi, “bu hadisələrin əsnasında Bicanoğlu Süleyman bəy Diyarbəkirdə Sufi Xəlilə qarşı üsyan qaldırdı və Sufi Xəlil öldürüldü. Bicanoğlu onun yerinə Baysunqurun lələsi oldu”.[57] Lakin Bicanoğlu Süleymanın özbaşınalıqları tezliklə ona qarşı da müxalifət yaratmış oldu. [58]

Bəzi tarixçilərin fikrinə görə, Rüstəm padşahın beş illik hakimiyyəti (1492-1497) Ağqoyunlu dövlətinin daxilindəki hərc-mərcliyi aradan qaldırmaq üçün sonuncu şans oldu.[59] Rüstəm padşahın hakimiyyəti dövründə ona qarşı çıxmış bir çox əmirin üsyanı yatırıldı, Baysunqur bəylə aralarında bir razılaşma əldə etmək üçün cəhdlər edildi. Hətta Rüstəm padşah Qarabağ və Gəncənin Bayasunqur Mirzəyə verilməsinə də razı oldu və bununla da Təbrizdəki hakimiyyətini möhkəmləndirdi.[60]

Lakin bu beş illik dövr də, təəssüf ki, Ağqoyunlu dövləti üçün hərbi-siyasi baxımdan ağır keçdi və Rüstəm padşahın bütün cəhdlərinə baxmayaraq, feodal ara müharibələrinin qarşısını tam almaq mümkün olmadı. Şərəf xan Bidlisinin yazdıqlarından bəlli olur ki, Rüstəm padşahın başı ölkənin daxilindəki üsyanların yatırılmasına qarışdığı üçün Mirzə Baysunqur vəziyyətdən istifadə etmək qərarına gəldi. Belə ki, o, ana tərəfdən babası olan Fərrux Yasarın hərbi qüvvəlәriin köməyilə Ağqoyunlu dövlətində hakimiyyətə qayıtmağa cəhd göstərdi: “Həmin il (1493) Gəncə və Bərdə sərhədlərində Rüstəm bəy və Sultan Yaqubun oğlu Baysunqur bəy arasında

---

[55] Bitlisi, *Şerefname,* 2: 122.
[56] Bitlisi, *Şerefname,* 2: 122-123.
[57] Bitlisi, *Şerefname,* 2: 123.
[58] Bitlisi, *Şerefname,* 2: 122.
[59] bax: Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri,* 210; Seyfettin Erşahin, “Türk hakimiyet tecrübesine XV. Yüzyildan bir örnek: Akkoyunlu hakimiyet anlayışı ve yönetim yapısı”, *Türkler,* Ankara : Yeni Türkiye Yayınları, 2007, 7: 124.
[60] Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, 211; Erşahin, *Akkoyunlular,* 124.

savaş oldu və Baysunqur bəy öldürüldü".[61]

Ağqoyunlu dövlətində Uzun Həsənin hakimiyyətinin sonuna doğru başlamış olan siyasi hərc-mərclik, feodal pərakəndəliyi Rüstəm padşahın da hakimiyyətdən getməsinə rəvac verən amillərdən oldu. Ona qarşı birləşmiş müxalif güclər Uğurlu Məhəmmədin oğlu Gödək Əhmədi hakimiyyətə gətirmək üçün fəaliyyətə keçdilər: "902-ci (1496/97-ci) ildə Həsən bəyin oğlu Uğurlu Məhəmmədin oğlu Gödək Əhməd kürəkəni olduğu Rum hökmdarı Sultan Bəyazid xandan qaçıb bir gəmiyə minərək Anadolu tərəfinə keçdi. Ərzincandan Azərbaycana gəlmək üçün saxladıqları atlara minib bir neçə nəfərlə Təbriz tərəfinə yönəldi. Uğurlu Məhəmmədin qızı ilə nikahı olan Hüseyn bəy Əlixaninin yardımı ilə Rüstəm bəyə qarşı üsyan qaldırıb onu məğlub etdi. Beləliklə, [Gödək Əhməd] Təbrizdə taxta oturdu və Rüstəm bəy də oldürüldü".[62]

Tarixçilərin bir qisminin fikrincə, əslində Gödək Əhmədi Ağqoyunlu taxtına gətirən qüvvələrin başında Osmanlı sultanı II Bəyazidin şəxsən özü dururdu və hələ 1496-cı ilin əvvəllərində bir qrup müxalif Ağqoyunlu əmirini təmsil edən "Həsənəli Tərhan İstanbula gəlib sultan II Bəyazidə Azərbaycan və Əcəm İraqının müdafiəsiz qaldığını bildirərək Əhməd bəyi Osmanlı qoşunu ilə Ağqoyunlu ərazisinə göndərməsinin vacib olduğunu" bildirdiyində sultan bu planı bəyənmişdi və Gödək Əhmədə yardım etmişdi.[63] Sultan Əhmədin hakimiyyətə gəlir-gəlməz Osmanlı qayda-qanunlarını tətbiq etmək siyasəti, bəlli ki, Osmanlı sultanı II Bəyaziddən qaynaqlanmışdır.

Ağqoyunlu padşahı Sultan Əhmədin həyata keçirmək istədiyi islahatlara qarşı çıxan siyasi güclərin arasında qaynı Hüseyn bəy Əlixani və Müzəffər Pörnək də vardı ki, [Gödək Əhməd] onların hər ikisini öldürdü. Bu zaman "Eybə Sultan Qacar və Qasım bəy Pörnək İraqda ona qarşı çıxdılar. Gödək Əhməd onların düşmənliklərini böyüklü-kiçikli hər kəsə bildirib qüvvələrini birləşdirdi. Qış aylarında ordusu ilə İsfahana gəldi. İki tərəf qarşı-qarşıya gəldi. Gödək Əhməd öldürüldü".[64] Beləliklə, Osmanlı nümunəsində islahatlar həyata keçirmək istəyən Sultan Əhməd də müxalif güclərin qurbanı oldu.

---

[61] Bitlisi, *Şerefname,* 2:, 124.
[62] Bitlisi, *Şerefname,* 2: 124-125.
[63] bax: Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri,* 212-213; Erşahin, *Akkoyunlular,* 126-127.
[64] Bitlisi, *Şerefname,* 2: 125.

Cilt:6 / Sayı:5
Kış 2019

**Nəticə**

Beləliklə, Azərbaycanın dövlətçilik və mədəniyyət tarixində çox önəmli rol oynamış, XV əsrdə Türk-İslam dünyasının aparıcı hərbi-siyasi güclərindən olmuş Qaraqoyunlu və Ağqoyunlu dövlətləri o dövrdə əksər Şərq xanədanlarına xas olan feodal dağınıqlığına və daxili qarşıdurmalara, bütün cəhdlərinə baxmayaraq, qalib gələ bilmədi. Dövlətin daxilindəki hərbi-siyasi qeyri-sabitlik onun coğrafiyasının böyüklüyü və xarici təhlükələrin hər zaman olması səbəbilə daha da artdı. Qaraqoyunlu Yusif, Ağqoyunlu Uzun Həsən və onların varislərinin, xüsusilə də Ağqoyunlu Rüstəm padşahın və Əhməd padşahın islahat cəhdləri də yuxarıda qeyd etdiyimiz səbəblərdən uğursuzluğa düçar oldu. Tezliklə, Azərbaycanda Ağqoyunlu dövlətinin yerini digər türk-müsəlman dövləti olan Səfəvilər tutdu.

Azərbaycanın Qaraqoyunlu və Ağqoyunlu dövlətləri haqqında "Şərəfnamə"də verilən məlumatlar və onların digər sinxron mənbələrdəki materiallarla müqayisəsi göstərir ki, XV əsr İslam coğrafiyasının hərbi-siyasi tarixində Azərbaycan həlledici yerlərdən birini tuturdu. Azərbaycanda baş verən istənilən siyasi hadisə, böyük bir coğrafiyanın hərbi-siyasi hadisələrində əks olunurdu. Adları çəkilən dövlətlərin başında duran hökmdarın şəxsiyyəti, sərkərdəlik və idarəçilik qabiliyyəti, həmçinin diplomatik uğurları bu hadisələrin məcrasının Azərbaycanın xeyrinə və ya zərərinə dönməsində az rol oynamırdı.

"Şərəfnamə"dəki məlumatlar da göstərir ki, XV əsrin birinci yarısında Azərbaycan Qaraqoyunlu dövlətinin yaranması və yüksəlişinin Şərqi Anadoluda və İranda türk hərbi gücünün göstərici idisə, sonrakı mərhələdə Ağqoyunlu dövlətinin yüksəlişi bu coğrafiyada türk etnik faktorunun güclənməsini şərtləndirmişdi. Bu dövrün hərbi-siyasi hadisələrinin "Şərəfnamə"də də əksini tapmış gedişatı daha bir neçə yüzilli boyunca Anadoluda, İranda və yaxın çevrələrdə başlıca aktorların türk-müsəlman dövlətləri olacağından xəbər verirdi. Qaraqoyunlu, Ağqoyunlu, xüsusilə də Səfəvi dövləti tez yaranıb tez də yoxa çıxan digər feodal dövlətlərindən fərqli olaraq, xronoloji deyil, siyasi və sosial-mədəni hadisə olaraq uzunömürlü olmuşdular. Bu dövlətlər Azərbaycan dövlətçiliyinin keyfiyyətcə yeni mərhələsini təşkil edərək, Azərbaycanın siyasi intibahını yaşadan dövlətlər idi.

## Qaynaqlar

AKA, İ., *Timur ve devleti*, Ankara: Türk Tarih Kurumu Basımevi, 1991.

AZƏRBAYCAN TARİXİ. 7 cilddə. (XIII-XVIII əsrlər). 3. Cilt. Bakı:"Elm", 2007.

ERŞAHİN, S., *Akkoyunlular. Siyasal, kültürel, ekonomik ve sosyal tarih*, Ankara: Özel Baskı Yayın Evi, 2002.

ERŞAHİN, S., "Türk hakimiyet tecrübesine XV. Yüzyildan bir örnek: Akkoyunlu hakimiyet anlayışı ve yönetim yapısı", *Türkler*, Yeni Türkiye Yayınları, Ankara, 2007, 7: 200-211.

GÖYÜNÇ, N., *XVI. Yüzyılda Mardin Sancağı*, İstanbul: İstanbul Üniversitesi Eğitim Fakültesi Yayınları, 1969.

QASIMOV, X., *Orta əsrlərdə Azərbaycan mədəniyyəti*, Bakı: "Aspoliqraf", 2008.

QURAN-İ KƏRİM (istənilən nəşri).

HUNCİ, F., *Tarih-i alam-arayi amini*, Perevod s angliyskogo na russkiy T.A.Minorskoy. Bakü: Elm, 1987

MAHMUDOV, Y.M., *Azərbaycan: qısa dövlətçilik tarixi*, Bakı: "Təhsil", 2005.

MUSTAFAYEV, Ş., *Vostoçnaya Anatoliya. Ot Akkoyunlu k Osmanskoy imperii*, Moskova: Vostoçnaya literatura, 1994.

NƏCƏFLİ, T.H., *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir türk tarixşünaslığında)*, Bakı: "Çaşıoğlu", 2012.

RUMLU, H., *Ahsenüt-tevarih*. Çeviren Mürsel Öztürk. Ankara: Türk Tarih Kurumu Yayınları, 2006.

SÜMER, F., "Akkoyunlular", *Türk Dünyası Araştırmaları*, sayı 40, İstanbul, 1986: 1-38.

ŞEREFHAN BİTLİSİ, *Şerefname*. Osmanlı – İran tarihi. Farsçadan çeviren Osman Aslanoğlu, 3. Cilt. İstanbul: "Nübihar", 2011.

TEHRANİ, Ə., *Kitabi-Diyarbəkriyyə*. Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilər R.Şükürovanındır. Bakı: "Elm", 1998.

TOGAN, Z.V., *Oğuz destanı. Reşideddin Oğuznamesi, tercüme ve tahlili*, İstanbul: Ahmet Sait matbaası, 1972.

TUNÇ, Z., "Akkoyunlular döneminde Harput", *Fırat Üniversitesi Harput Uygulama ve Araştırma Merkezi, Geçmişten Geleceğe Harput Sempozyumu*, Elazığ, 23-25 mayıs 2013: 569-578.